**1. Sözlər hansı nitq hissələrinə aiddir?**

1. xü´lasə (...) – xülasə´ (...)
2. mü´tləq (...) – mütlə´q (...)
3. nə´hayət (...) – nəhayə´t (...)

A) 1. modal söz – isim; 2. zərf - sifət; 3. modal söz – sifət
B) 1. isim - isim; 2. modal söz - sifət; 3. modal söz - modal söz
C) 1. isim - modal söz; 2. sifət - zərf; 3. isim –modal söz
D) 1. modal söz - isim; 2. zərf - sifət; 3. modal söz – isim
E) 1. zərf - isim; 2. zərf - sifət;
3. isim - modal söz

**2. Aşağıdakılardan doğru və yanlışları qruplaşdırın**:

1. böhdan [böhtan] 2. fərziyyə [ fərziyə]
3. ABŞ [A-B-Ş] 4. akkordeon [akardeon]
5. ötkəm [ötgəm] 6. aşbaz [aşpaz]
7. koronavirus [karonavirus]
8. DTX [De-Te-Xa]

A) Doğru – 1,3, 5, 6; Yanlış – 2, 4, 7, 8
B) Doğru – 2, 4, 5, 7; Yanlış – 1, 3, 6, 8
C) Doğru – 2, 3, 5, 7; Yanlış – 1, 4, 6, 8
D) Doğru – 2, 5, 7, 8; Yanlış – 1, 3, 4, 6
E) Doğru – 3, 5, 7, 8; Yanlış – 1, 2, 4, 6

**3.** *“O .................. oxuyardı”* cümləsində *o* əvəzliyi ismin yerində işlənmişdir. Buna əsasən, roma rəqəmləri ilə göstərilmiş ifadələr hansı ardıcıllıqla nöqtələrin yerinə qoyulsa, mübtədadan sonra vergül qoyulmalı olar?

I – yeni jurnalları II – axşamlar
III – da IV – bizim üçün
1. IV, II, I, III 2. II, III, I, IV
3. I, II, IV, III 4. III, II, IV, I

A) 1, 5 B) 2, 4 C) 3, 5
D) 2, 3 E) 1, 4

**4.** ***“Vüqar yerə səpilmiş kitab vərəqlərini ildırım sürətilə yığışdırıb otaqdan çıxanda gec idi”.*** **- cümləsinin düzgün sintaktik təhlil sxemini müəyyənləşdirin.**



A)
B)
C)
D)
E)

**5. Hansı cümlələri sadə hesab etmək olmaz?**

1. Bağlayıcı sözlərin iştirak etdiyi cümlələri
2. “ilə” bağlayıcısının iştirak etdiyi cümlələri
3. “Həqiqətən”, “düzdür” ara sözlərin iştirak etdiyi cümlələri
4. “Ki” bağlayıcısının iştirak etdiyi cümlələri.
5. Qarşılaşdırma bağlayıcılı cümlələri.

A) 1, 4 B) 2, 3, 5 C) 1, 3, 4
D) 1, 2, 3 E) 4, 5

**6. Sillogizmə əsasən nöqtələrin yerinə yazılmalıdır:**

I - Düzəltmə sözlərin tərkibində kök və leksik şəkilçi olmalıdır.

II - Yalnız əsas nitq hissələri söz yaradıcılığında iştirak edir.

III - ...

A) Mürəkkəb sözlər iki müstəqil sözün birləşməsindən yaranır.
B) Kökləri eyni olan sözlər eyniköklüdür.
C) Düzəltmə sözlərin kökü əsas nitq hissəsinə aid olan sözlərdir.
D) Həm sadə, həm də mürəkkəb sözlərdən yeni söz yarana bilər.
E) Sözlərin kökü, başlanğıc forması və yarandığı nitq hissəsi fərqli ola bilər.

**7. [döyüşdü] sözü hansı mənalarda işlənə bilər?**

1. icbar növdə olan feil
2. *idi* hissəciyi qəbul etmiş feil
3. keçmiş zamanda olan feil
4. xəbərlik şəkilçisi qəbul etmiş isim
5. *idi* hissəciyi qəbul etmiş isim

A) 1, 2, 3 B) 3, 4 C) 2, 3, 5
D) 1, 4, 5 E) 2, 4

**8. Sxemi tamamlayacaq fikri və nöqtələrin yerinə yazılacaq sözləri müəyyən edin.**




A) 1 – Söz ortasında yanaşı gələn eynicinsli saitlərdən ikincisi fərqli tələffüz olunur; 2 – Təəccüb; 3 – Ailə
B) 1 – Yanaşı gələn saitlərin hər ikisi fərqli tələffüz olunur; 2 – Arxeologiya; 3 – Maneə
C) 1 – Söz ortasında səsdüşümü hadisəsi baş verir; 2 – Neftçi; 3 – Müalicə
D) 1 – Yanaşı gələn saitlərin tələffüzü və yazılışı eyni olur; 2 – Təbii; 3 – Saat
E) 1 – Yanaşı gələn saitlərin yazılışı və tələffüzü fərqlənmir; 2 – Məcmuə; 3 – Şücaət

**9. Hansı cümlədə zərf işləndiyini əminliklə söyləmək olar?**

A) Çantadan əvvəl pulqabımı çıxardım.
B) Şkafdan əvvəl çamadanları götürdük.
C) Qapıdan əvvəl pəncərələri açdılar.
D) Otaqdan əvvəl müəllim çıxdı.
E) Fizikadan əvvəl Riyaziyyat dərsi başladı.

**10. Rəqəmlərin yerinə uyğun ardıcıllıqla yazılmalıdır:**

<table>
<tr><td colspan="2">1 –</td><td colspan="2">2 –</td></tr>
<tr><td>sinonim</td><td>antonim</td><td>çoxmənalı</td><td>omonim</td></tr>
<tr><td colspan="3">3 –</td></tr>
</table>

a. Eyni cür yazılmalı və tələffüz olunmalıdır.
b. Həm eyni, həm də fərqli nitq hissəsinə aid ola bilər.
c. Yalnız eyni nitq hissəsinə aid olmalıdır.
d. İki və daha artıq sözlə izah edilir.
e. Məcazi məna əsasında yaranır.

A) 1 – d; 2 – a; 3 – c
B) 1 – a; 2 – c, e; 3 – b, d
C) 1 – b, d; 2 – a, e; 3 – c
D) 1 – d; 2 – c, e; 3 – a
E) 1 – b; 2 – a, d; 3 – c, e

**11.** Vurğusuna görə düzgün ardıcıllığı müəyyən edin.

| | I heca | II heca | III heca | IV heca |
|---|---|---|---|---|
| A) | qəhrəman-lıqla | sanksiya | təkrarən | monitorinq |
| B) | sanksiya | monitorinq | təkrarən | qəhrəman-lıqla |
| C) | sanksiya | təkrarən | monitorinq | qəhrəman-lıqla |
| D) | təkrarən | monitorinq | sanksiya | qəhrəman-lıqla |
| E) | qəhrəman-lıqla | təkrarən | sanksiya | monitorinq |

**12. “?” işarəsinin yerinə yazılmalıdır:**




A) Quruluşca yalnız düzəltmə olur.
B) Adlara və feillərə leksik şəkilçi artırmaqla yaranır.
C) Ən az iki subyektin iştirakı ilə yaranır.
D) Bu növləri əmələ gətirən bütün şəkilçilər 4 cür yazılır.
E) İki subyektin işi qarşılıqlı şəkildə icra etməsini bildirir.

**13. Cümlələrin birində isimlərdən ikisi adlıq haldadır.**
A) Xanım, bu qızıl üzük neçəyədir?
B) Mən bir oynaq bülbüləm ki, güldən-gülə uçaram.
C) Qəlbi dağlar baş-başadır, o, Şəkidir, o, Şuşadır.
D) Paslanacaq mənsiz şimşək üzəngim.
E) Arif və Əşrəf dostdurlar.

**14. “*Bir sıra*” sayı ilə, “*şirin-şirin*” sifətinin oxşar xüsusiyyəti kimi verilə bilər.**
A) Özündən sonra gələn isim mütləq cəmdə olmalıdır.
B) Yalnız konkret isimlərlə işlənə bilər.
C) Nitq hissələrindən yalnız ismin qarşısında işlənə bilər.
D) Morfoloji üsulla yaranmış sözdür.
E) İsimləşə bilir.

**15.** Günəş kremləri müxtəlif komponentləri bir araya gətirərək günəşin zərərli şüalarının dərimizə zərər verməsinin qarşısını alır. Daha çox “qoruyucu təsiri” olan SPF-nin UVB şüalarına qarşı qoruma miqdarını göstərən cədvəl aşağıdakı kimidir:

| | Gün ərzində tətbiqin təkrarlanma müddəti | UVB qoruma miqdarı | Açıldıqdan sonra son istifadə müddəti |
|---|---|---|---|
| SPF 15 | 2 saatdan bir | 93% | 9 ay |
| SPF 30 | 3 saatdan bir | 95% | 12 ay |
| SPF 50 | 3 saatdan bir | 97% | 12 ay |

**Bu məlumatlara əsasən aşağıdakı hökmlərdən hansı doğrudur?**

A) Gün ərzində bir dəfə krem istifadə etməklə özümüzü zərərlərdən qoruya bilərik.
B) Qoruyucu təsiri 50 olan kremi gün ərzində 2 saatdan bir istifadə etməklə qoruma miqdarını 100% etmək mümkündür.
C) 30 və 50 qoruyucu təsiri olan kremlərin qoruma təsirində və son istifadə müddətində fərq yoxdur.
D) Son istifadə müddəti ən az olan kremin gün ərzində tətbiqinin təkrarlanmasını nəzərə alsaq, ən çox qoruma təsirinə malikdir.
E) Qoruyucu təsiri 15 olan krem bütün göstəricilərinə görə digərlərindən geridə qalır.

**16. Aşıq Ələsgərin bu adla iki müxtəlif janrda yazılmış əsəri var.**
A) “Görmədim” B) “Dağlar”
C) “Yaylaq” D) “Gördüm”
E) “Olmaz”

**17. S.Ə.Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" əsərinin məzmun xüsusiyyətləri ilə bağlı doğru fikirləri müəyyən edin.**

1. Şair əsərdə nadanlığı bəla hesab edir.
2. Əsər əruz vəzninin xəfif bəhrində yazılıb.
3. Şeirin qafiyə quruluşu *aa, bb, cc ...* şəklindədir.
4. Məsnəvi formasındadır.
5. Cəmiyyətin nöqsanlarını şair elmsizliklə əlaqələndirir.

A) 2,3,5 B) 1,5 C) 2,4,5
D) 3,5 E) 1,3

**18.** *Müəssərdir əndəlibdin nalələr,*
*Saçmış incü səbzə üzrə jalələr,*
*Eşq odundin dağlar qoymuş lalələr*
-------------------------------------------

**Verilmiş nümunənin hansı sənətkara aid olduğunu və janrını müəyyən edin.**

A) Məhəmməd Əmani, qoşma
B) Ş.İ.Xətayi poemadan parça
C) Q.Zakir, qoşma
D) Qurbani, qoşma
E) Ş.İ.Xətayi, qoşma

**19. M.P.Vaqif haqqında yanlış fikri seçin.**

A) Gözəlləmələrinin cəlbedici olmasının səbəbi şairin onları tükənməyən ilhamla yeni çalarda, yeni təravətdə qələmə almasıdır.
B) Gəraylının mükəmməl nümunələrini yaratmışdır.
C) Özdəbi məktəbini sadəlik, xəlqilik, nikbinlik kimi əlamətlərlə ölməzlik qazanan qoşmalarla yaratmışdır.
D) Şairin məhəbbət mövzusunda yazdığı əsərlər qədim və orta əsrlər poeziyasından fərqlənirdi.
E) Yalnız lirik növdən istifadə etmişdir.

**20. Xəlil Rza Ulutürkün *"Qaytar mənim qüdrətimi, Azərbaycan!"* şeiri ilə bağlı uyğunsuzluğu müəyyənləşdirin:**

| DOĞRUDUR | YANLIŞDIR |
|---|---|
| 1. Şeirin bəzi bəndlərində lirik qəhrəmanın kədəri ağı təsiri bağışlayır.<br><br>2. Ülvi, Təbriz kimi oğulların bir daha olmayacağından təəssüf hissi öz əksini tapmışdır.<br><br>3. Bütün bəndlərin sonunda təkrarlanan bədii xitab şeirin təsir gücünü artırır. | 4. Lirik qəhrəman tək qalsa belə, öz gücünün ölkənin qüdrətini geri qaytarmağa yetəcəyinə inanır.<br><br>5. Tərənnüm və təhkiyənin vəhdəti şeirin obrazlılığını qüvvətləndirən amillərdəndir.<br><br>6. Digər xalqlara kömək məqsədi ilə müraciət olunub. |

A) 2, 6 B) 1, 5 C) 2,4
D) 1, 4 E) 3, 5

**21. Hansı nümunədə həm metafor, həm də epitet işlənmişdir.**

A) Harda ümman coşur, çaylar tələsir,
Ürəyim ordadır, özüm ordayam.
B) Orda bitməyəcək o solan çiçək,
Külək o xəzəli ayıltmayacaq.
C) Çəkilsin gecələr Qara dənizdən,
Gülsün bizim kimi Qara dəniz də.
D) Tənhalıq dərdini çöllər unudur,
Dənizə bənzəyir yaşıl zəmilər.
E) Yenə tərlan könlüm pərvaz eyləyir,
Dövr edib qonmağa bir budaq istər.

**22. Fikrət Qocanın "Şuşa" şeiri ilə bağlı səhv fikirləri seçin:**
1. Şair Şuşanın gözəlliyindən, onun əzəmətli, başı dumanlı dağlarından, güllü-çiçəkli xalıya bənzəyən çəmənlərindən məhəbbətlə söz açır.
2.Şeirin quruluşu 11 hecalıdır
3.Şeirdə Şuşanın ermənilər tərəfindən işğal edilməsi, təbiətinin məhv edilməsinə toxunulur.
4.Şeirdə Daşaltı çayından bəhs olunur.
5. Əsərdə adı çəkilən yerlərdə neçə-neçə igidimizin şəhid olması tərənnüm edilir.
6.Qafiyə sistemi *abcb, çççb, dddb, eeeb, əəəb* şəklindədir.

A) 2, 4, 5 B) 2, 4, 6 C) 1, 2, 5
D) 3, 5, 6 E) 3, 4, 5

**23. "Koroğlu" dastanından verilmiş nümunə əsərin hansı məqamında söylənilir?**
*Koroğlu heç deməz yalan,*
*Toqata salmışam talan,*
*Cümlə dəlilər, Eyvaz xan,*
*İyid ərlər yerindəmi?*
A) Toqatdan Qıratla qayıdan Koroğlu Çənlibeldə məclis quranda.
B) Toqatda Mahmud paşanın qoşununa qarşı tək vuruşarkən.
C) Paşa igidliyin nişanını Koroğludan xəbər aldığı zaman.
D) Çənlibelə qayıdan Koroğlu durna qatarını görəndə.
E) Qıratın ardınca Toqata gedən zaman.

**24. *Təşxis, intaq* kimi ədəbi terminləri nəzərə alaraq uyğun bəndi müəyyənləşdirin.**
A) M.İbrahimov "Püstə ağacı", C.Məmmədquluzadə Çay dəsgahı", S.Əhmədov "Dənizdən gələn səda"
B) M.Füzuli, "Səhhət və mərəz", A.Şaiq "Anabacı", "Arıların qəzəbi" (nağıl)
C) M.Füzuli Söhbətül-əsmar", V. Hüqo "Qavroş", N.Gəncəvi "Sultan Səncər və qarı"
D) Q.Zakir "Durnalar", Ə.Haqverdiyev "Bomba", E. Heminquey "Qoca və dəniz"
E) H. Ziya "Gərgədan və qarışqa", , İ.Krılov "Ağac", Ə. Əlibəyli "İlan və Qurbağa"

**25. H.Cavidin "Ana" əsəri ilə bağlı verilmiş fikirlərin doğru (D) və ya yanlış (Y) olduğunu müəyyən edin.**

| | | D | Y |
|---|---|---|---|
| 1. | İsmət Qanpoladın qisasını almaq istəyir. | | |
| 2. | İsmət baş verənləri heç vaxt Səlimə bildirmir. | | |
| 3. | Qanpolad Orxan və İzzəti vursa da, Muradın gülləsinə tuş gəlir. | | |
| 4. | Səlma heç vaxt qisas hissinə qapılmır. | | |
| 5. | Səlma son nəfəsində Qanpoladla danışa bilmir. | | |
| 6. | Birpərdəli "Ana" pyesi H.Cavidin ilk mənzum dram əsəridir. | | |

A) 1-D, 2-D, 3-Y, 4-Y, 5-D, 6-Y
B) 1-D, 2-Y, 3-D, 4-Y, 5-Y, 6-D
C) 1-Y, 2-D, 3-D, 4-D, 5-Y, 6-D
D) 1-Y, 2-Y, 3-D, 4-D, 5-Y, 6-D
E) 1-D, 2-Y, 3-Y, 4-D, 5-D, 6-Y